## Azərbaycan Respublikasının Belçika Krallığındakı Səfirliyi

| | |
|---|---|
| **Haradan:** | **SBRS** |
| **İcra üçün:** | **MRTİ, MİHİ** |
| **Məlumat üçün:** | **MNKT, Aİ üzv ölkələrindəki Səfirliklərə, SVŞN, NAVŞ** |
| **Sənədin SBRS** 125 **/17** | **Tarix:** 21 **/** 02**/2017** |
| **Sənədin göndərilməsi:** | **Elektron poçt** |
| **Səhifələrin sayı: 1** | **Əlavə olunur:** |
| **Məhdudluğun qrifi:** | **Adi** |
| **Təcililiyi** | **Təcili** |
| **Vacibliyi:** | **Vacib** |
| **Məsələyə dair:** | **Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən qeyri-qanuni "referenduma "dair Milli Məclis üzvləri tərəfindən müvafiq məktubların ünvanlanması** |

Azərbaycan Respublikasının
xarici işlər nazirinin müavini
cənab Mahmud Məmməd-Quliyevə

Hörmətli Mahmud müəllim,

Səfirliyin SBRS/121/17 saylı, 21/02/2017 tarixli məktubuna əlavə olaraq nəzərinizə çatdırmaq istərdik ki, Avropa Parlamentinin (AP) Avropa Xalqları Partiyası (AXP) siyasi qrupunun üzvləri, qatı-ermənipərəst və anti-Azərbaycan mövqeli şəxslər kimi tanınan Frank Engel (Lüksemburq) və Yaromir Ştetina (Çexiya) cari ilin 20 fevral tarixində Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qeyri-qanuni "konstitusiya referendumun" da "beynəlxalq müşahidəçi" qismində iştirak məqsədilə "Dağlıq Qarabağ Respublikası"na səfər etmişdilər.

Bu məqamı nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisin müvafiq rəhbərliyi tərəfindən Azərbaycan tərəfinin dərin narahatlığını ehtiva edən məktubların Avropa Parlamentinin yüksək səviyyəli rəsmilərinə (AP Prezidenti A. Tayani, Avronest PA-nın həmsədri Rebeka Harms, AP-nin Xarici Əlaqələr Komitəsi- AFET sədri David Makalister və s.) ünvanlanması məqsədəmüvafiq olardı.

Məsələ ilə bağlı AR-nın Prezidenti Administrasiyası və Milli Məclisinin məlumatlandırılmasını xahiş edirik.

Hörmətlə,

**Səfir: Fuad İsgəndərov** ____________